# Qəbələ sosial-iqtisadi inkişafın yeni mərhələsində

## Çıxışlar

(Əvvəli 3-cü səhifədə).

**Sabir BAYRAMOV, Qəbələ RMX-nın baş həkimi.**



Ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının 2012-ci ilin yekunları ilə bağlı nitqi bir daha Azərbaycanın inkişafını, bu inkişafın ulu öndər, dahi Heydər Əliyevimizin ideyalarına söykəndiyini göstərdi.

Ötən il Qəbələmiz üçün də inkişaf ili olmuşdur və böyük razılıq doğurur.

Rayonumuzda ötən il qazanılmış uğurlarda səhiyyə işçilərimizin də payı vardır. Hörmətli başçının söylədiyi fikir və rəqəmləri təkrarlamayaraq bir neçə məqama diqqətinizi cəlb etmək istəyirəm.

Ötən il keçirilən qanvermə aksiyasında rayonumuz fəal iştirak etmiş, 300 donordan qan tədarük edilmişdir. Bu aksiyada fərqlənən bütün şəxslərə, xüsusən də rayon polis şöbəsi, 10 saylı ərazi vergilər idarəsi, FHN-nin Şimal-qərb Regional Mərkəzi işçilərinə və göstərdiyi böyük dəstəyə görə RİH-nə təşəkkür edirəm. Məhz bunun sayəsində talassemiyalı xəstələrimiz il ərzində fasiləsiz olaraq qanla təchiz edilmiş, onların hər birinə qan preparatları talassemiya mərkəzindən gətirilmiş xüsusi leykositar filtrlərlə köçürülmüşdür.

Ötən il 182994 ambulator, 3695 stasionar xəstəyə yardım göstərilmiş, 14515 məktəbli müayinə olunmuş, 367 nəfərdə cərrahi əməliyyat aparılaraq, 1045 şəkərli xəstəyə 84804 manatlıq, ümumilikdə imtiyazlı xəstələrə 128.690 manatlıq pulsuz dərman verilmişdir. 121 uşağa, 223 böyük yaşlıya ilkin əlillik təyin edilmişdir. Ötən il 16 məntəqəyə telefon xətti çəkilmiş, 103414 manatlıq inventar və avadanlıq alınmışdır.

6539 nəfər obliqat qrupdan 5213 nəfər müayinəyə cəlb olunmuş və bunun da əsas qismini təhsil və səhiyyə işçiləri təşkil etmişdir.

Əhalinin sağlamlığının qorunmasında xüsusi yeri olan peyvəndləşmə işi də əsasən yaxşı təşkil olunmuşdur. Dekabr ayında məhz ölkə rəhbərinin göstərişi ilə respublikada sağlamlıq aylığı keçirilmiş, rayonumuzda bu aksiya zamanı 16 min nəfər müayinələrə cəlb olunmuşlar.

Hörmətli başçı, hörmətli müşavirə iştirakçıları! İcazə verin Sizi əmin edim ki, Qəbələ səhiyyə işçiləri bundan sonra da qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün əzmlə çalışacaq, möhtərəm prezidentimiz İlham Əliyevə həmişə olduğu kimi yüksək sadiqlik nümayiş etdirəcəklər. Çünki bu sadiqlik dövlətə, xalqa, millətə, onun sabahına olan qayğının təzahürüdür.

**Nargilə QAFAROVA, Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri.**



Qəbələ rayon Mədəniyyət və Turizm Şöbəsinin strukturunda hazırda 36 mədəniyyət müəssisəsi fəaiyyət göstərir ki, bunlardan 14-ü mədəniyyət evi, 22-si isə klubdur. Bu sahədə 153 nəfər işçi çalışır. Onlardan 11-i ali təhsilli, 34-ü orta ixtisas, qalanları isə ümumi orta təhsillidir. Klub müəssisələrinin 11-i şöbənin balansında olan binalarda, qalanları isə uyğunlaşdırılmış binalarda yerləşir.

Bir çox mədəniyyət evləri və klublar son dövrdə mədəniyyət sahəsində aparılan islahatlara uyğun olaraq, öz işlərində dönüş etməyi bacarmışlar. Təbii ki, kənd mədəniyyət müəssisələrinin bu günkü işindən danışarkən bu sahədə həyata keçirilməyə başlayan islahatlardan yan keçmək olmaz. Azərbycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin respublikanın 10 rayonunda yeni strukturda rayon mədəniyyət mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur ki, Qəbələ rayonu da bu sıraya daxildir.

«Rayon Mədəniyyət Mərkəzlərinin yaradılması haqqında» layihədə doğru olaraq qeyd edilir ki, klub müəssisələri illərlə ideoloji təbliğat mərkəzi kimi fəaliyyət göstərmiş, əksər hallarda isə onların fəaliyyəti formal xarakter daşımış, yerlərdən təqdim edilən hesabatlar real vəziyyəti əks etdirməmişdir. Yerlərdə əhali asudə vaxtını səmərəli keçirmək üçün binası, oturacaqları, səhnə və digər avadanlığı yararlı olmayan klub müəssisələrindən istifadə edə bilmir. Şöbə tərəfindən aparılmış müvafiq monitorinqlər zamanı, layihənin tələblərinə uyğun bir çox klub müəssisələrində iş aparıldığı müşahidə edilsə də, bir çoxlarının isə hələ də işə köhnə şüurla yanaşdığı məlum olmuşdur. Bunlara Kürd kənd mədəniyyət evini, Quşlar, Mirzəbəyli, Nohurqışlaq, Nic 3 saylı, Aydınqışlaq, Məmmədağalı, Bunud, Seyidqışlaq və digər klub müəssisələrini misal göstərmək olar.

Qəbələ turizm bölgəsidir. İldən ilə kənd turizmi inkişaf edir. Kəndləri dincəlmək üçün seçən hər hansı bir turist kəndin tarixi keçmişi və bu günü haqqında məlumat almaq üçün mədəniyyət müəssisəsinə üz tutmalı və burada onu maraqlandıran informasiyanı əldə etməlidir. Bu istiqamətdə, məsələn, Hacıalılı kənd, Vəndam qəsəbə, Qəmərvan kənd mədəniyyət evi işini nümunəvi qurub.

Çalışacağıq ki, dövlətin bizə göstərdiyi qayğıya öz əməli işimizlə cavab verək.

**Sübhi BAYRAMOV, qaz istismar sahəsinin rəisi.**

Qəbələ Qaz İstismar Sahəsi rayonun qazlaşmış 24 yaşayış məntəqəsində 9396 əhali, 118 qeyri-əhali istehlakçısına xidmət göstərir.



2012-ci ildə qaz istismar sahəsi 33.404.433 kubmetr mavi qaz qəbul etmiş, ondan 17.654.905 kubmetr həcmində 1.765.905 manat dəyərində əhali, 10.115.500 kubmetr həcmində 1.011.500 manat dəyərində qeyri-əhali istehlakçılarına satmışdır. Qəbul edilmiş əmtəəlik qazın dəyəri 100 faiz ödənilmişdir.

Ötən ildə 785 əhali və 16 qeyri-əhali abonenti qeydiyyata alınaraq təbii qazla təmin olunmuşdur.

QİS-nin daxili imkanları hesabına əhalinin qaz təchizatını yaxşılaşdırmaq üçün əvvəllər pərakəndə və müxtəlif kiçik diametrli borularla çəkilmiş korroziyaya uğramış 3062 paqonmetr qaz xətləri «Tikinti norma və qaydaları»na uyğun olaraq yenisi ilə əvəz edilmiş, 4 ədəd tənzimləyici və 16 ədəd siyirtmə quraşdırılmışdır.

Rayonda aparılan abadlıq-quruculuq işləri ilə əlaqədar 1573 paqonmetr küçə xətlərinin yeri dəyişdirilmişdir.

Qəbələ Beynəlxalq Hava Limanına gedən yolun tikintisi ilə əlaqədar, yolun genişlənən hissələrində olan müxtəlif ölçülü daşıyıcı və paylayıcı qaz xətləri demontaj olunaraq QİS-nin anbarına təhvil verilmiş, podratçı təşkilatlar tərəfindən «Tikinti Norma və Qaydaları»na uyğun olaraq 9660 p/m yeni qaz kəməri çəkilmiş, yolun ayrı-ayrı hissələrində 17 ədəd 530 mmlik 730 paqonmetr keçidlər salınmışdır.

Rayonun qaz təchizatını yaxşılaşdırmaq və şəhərin qaz xətlərinin yenidən qurulması üçün 15641 paqonmetr müxtəlif diametrli polietilen borular çəkilmişdir.

Qəsəbə və kəndlərdə qazlaşma işləri davam edir. Belə ki, Nic istiqamətində 9.500 paqonmetr daşıyıcı, Bum və Qəmərvan istiqamətində 10.000 paqonmetr daşıyıcı və 3994 paqonmetr paylayıcı, Nohurqışlaq kəndinə 12605 paqonmetr paylayıcı qaz xətləri çəkilərək 165 evə sayğac quraşdırılmışdır. Vəndam qəsəbəsində qazlaşma işləri yekunlaşmaq üzrədir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bir struktur bölməsi olan Qəbələ Qaz İstismar Sahəsinin kollektivi də Respublikamızın Prezidenti cənab İlham Əliyevin qarşımıza qoyduğu tapşırıqları layiqincə yerinə yetirməyə hazırdır.

**Əfsər MƏMMƏDOV, rayon telekommunikasiya qovşağının baş mühəndisi.**

«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» cənab Prezident İlham Əliyevin imzaladığı fərmanda qarşıya qoyulan vəzifələr Qəbələ Telekommunikasiya Qovşağının (TQK) kollektivi tərəfindən layiqincə icra edilir.

Fərmanla əlaqədar həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində 2012-ci il qovşaq üçün də uğurlu olmuşdu. Qovşaq nəzərdə tutulmuş proqnoz tapşırığını 102,5 faiz yerinə yetirib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qovşaq 74 min manat artıq gəlir əldə etmişdir.

Ötən il tərəfimizdən 445 nöqtə üçün telefon xətti çəkilərək abunəçilərin istifadəsinə verilmişdir. Bunun da 175 ədədi şəhər telefon şəbəkəsinin, 270 ədədi isə kənd telefon şəbəkəsi abunəçilərinin payına düşür. Hal-hazırda Qəbələ TKQ-nin xidməti ərazisində 1



şəhər EATS-üzrə 3.454 nömrə, 23 kənd EATS üzrə isə 8.256 nömrə, 3 mini EATS üzrə 96 nömrə və hər biri 4 nömrədən ibarət 4 kənd peyk rabitəsi ilə təmin edilib. Ümumilikdə, rayonun bütün kəndlərinin telefonlaşdırılması tam başa çatmış və montaj tutumu 11.820 nömrələrə çatdırılmışdır. Həmin nömrələrin 3.454 nöqtəsi şəhər telefon şəbəkəsi abunəçilərinin payına düşür. Bundan əlavə şəhərdə aparılan abadlıq işləri ilə əlaqədar şəhər telefon şəbəkəsinin S. Vurğun, N. Cəncəvi, Z. Əliyeva və şəhərin başqa küçələrində köhnəlmiş yerüstü hava rabitə xətləri yenisi ilə əvəz edilərək yeraltı vəziyyətə gətirilmiş və 6,2 kilometr məsafədə yeni kabel kanalizasiya qurğuları qoyulmuşdur. Payız-qış mövsümü qabağı şəhər telefon şəbəkəsində 83, kənd telefon şəbəkəsində isə istismar dövrünü başa vurmuş 70 ədəd rabitə dirəyi dəyişdirilmiş və 13 kilometr məsafədən çox TPP kabelləri dəyişdirilərək yenisi ilə əvəz olunmuşdur. Görülmüş tədbirlər nəticəsində Tüntül, Nohurqışlaq, Bayramkoxalı, Bılıx, Dizaxlı, Quşlar, Mıxlıqovaq, Mirzəbəyli, Çuxur Qəbələ kənd EATS-lərinin birləşdirici xəttlərinin EO kabelinə keçirilməsi işi başa çatdırılmışdır.

2013-cü ildə qarşımızda görüləsi işlərimiz çoxdur. Tədbirlər planına əsasən rayonun şəhər və kənd rabitə şəbəkəsinin NCN texnologiya əsasında qurulması nəzərdə tutulub. Bu il şəhər telefon şəbəkəsində mərkəzi EATS və paylayıcı şkaflar yeni texnologiya əsasında qurulacaq və paylayıcı şkaflar bir-biri ilə FO kabelləri vasitəsilə birləşdiriləcəkdir.